

Mirdamət Əziz

## VƏTƏN

Susdurmuşuq düşməni,
Qüdrətimizsən, Vətən,
Kimsə tapdaya bilməz,
Qeyrətimizsən, Vətən.

Haqq yolumuz uzandı,
Düz qoruduq düz andı,
Səninlə ad qazandıq,
Şöhrətimizsən, Vətən.

Dərd çəkilib çən kimi,
Səmadan da ənginik,
Çoxlarından zənginik,
Sərvətimizsən, Vətən.

Demə, gülümüz solmur,
Demə, gözümüz dolmur,
Sənsiz yaşamaq olmur,
Şəfqətimizsən, Vətən.

Millətin xoş anısan,
Ürəyisən, canısan,
Haqqın ərməğanısan,
Cənnətimizsən, Vətən.

## OLDU

Mübarizə üzüyüm,
Əqidə qaşım oldu,
Qaralan yolum-izim,
Ağaran başım oldu.

Məhəbbət şah əsərim,
Azalmadı kəsərim,
Faş oldu gizlinlərim,
Ellər sirdaşım oldu.

Duyğular güldən incə,
Ruhumu qoydum dincə,
Sevincim təklənincə,
Kədərim qoşun oldu.

Bəxt məni çəkdi dara,
Sinəm bağladı yara,
Süzüldü yamaclara,
Sellər göz yaşım oldu.

Artdı dərdim-azarım,
Bitdi giley-güzarım,
Düzənliklər məzarım,
Dağlar başdaşım oldu.

## MEŞƏBƏYİ

Dolubdu buludlar dolduğu qədər,
Sisin, dumanındı, çənindir bu dağ,
Aslanın, pələngin olduğu qədər
Sənindir bu meşə, sənindir bu dağ.

Canına şəfalar gətirir bol-bol
Kəkotu, itburnu, zəncəfil sənin,
Dağların döşündə hər ağac, hər kol
Arxan-dayağındır elə bil sənin.

Mən qırqovulları, mən turacları
Bu qədər şad-xürrəm görmədim hələ,
Əyən küləkdirmi bu ağacları,
Ya təzim edirlər qarşında belə?!

Qoşul toy-büsata, dayanma kefsiz,
Qurutsun zirvələr yaş örpəyini,
Inana bilmirəm bu qədər sevsin
Meşə rəiyyəti meşəbəyini.

Gözdən keçirdikcə dərəni, diki,
Ülvi gözəlliyə mat qalır insan,
Qayalar onunçun vüqarlıdır ki,
Dağların dalında sən dayanmısan!

## KƏHKƏŞAN YOLUDUR YOLU TANRININ

Qalxsana, yuxuna noğulmu yağır,
Ov, başı üstünü aldıranındır,
Tez yatıb gec duran nə bilsin axı,
Səadət gec yatıb tez duranındır.

Dağ kimi gözümdə çən oyanmasam,
Yazmasam, nəğməmi yurda kim yayar,
Səhər açılınca mən oyanmasam,
Üfüqdə günəşi kim salamlayar?!

Qiblədən əsinti gətirən yelə
Üzümü çevirib düz dayanıram,
Axşamlar  günəşdən gec yatsam belə,
Səhərlər ülkərdən tez oyanıram.

İncə rübabımla gəlirəm dilə,
Məni görməyəndə qövr edir günəş,
Gündüzlər gözümdə dolansa belə,
Gecələr könlümdə dövr edir günəş.

Üfüqdən göz vurur mənə hər səhər,
Günəş də bilir ki, günəşpərəstəm.
Ani qığılcımım alova dönər,
Sağ qalan sonuncu atəşpərəstəm.

Parlayan şeh deyil güldə-gülşəndə,
Gözümdən çəmənə yaş düşür mənim,
Məni qınamayın, axşam düşəndə
Elə bil başıma daş düşür mənim.

Kəhkəşan yoludur yolu Tanrının,
Gözlərim günəşin ağ telindədir,
Ömrümü uzatmaq ulu Tanrının,
Günümü uzatmaq öz əlimdədir.

